# Qələbəyə aparan yol



**Müharibə haqda həqiqətləri bilmək üçün müharibənin içində olmaq lazımdır. Kənardan çox məsələlər asan və bəzən də aldadıcı görünə bilər. Bu mənim 1992-ci ildən 2010-cu ilə qədər Müdafiə Nazirliyinin telestudiyasında zabit kimi xidmət keçən Qarabağ savaşının veteranı, ordudan ehtiyata buraxıldıqdan sonra isə televiziyalarımızdan birində hərbi-vətənpərvərlik verilişinin aparıcısı və ssenari müəllifi kimi cəbhə-cəbhə gəzərək ardıcıl səngərlərdən süjetlər, verilişlər, sənədli filmlər hazırlayan hərbi jurnalist kimi gəldiyim qənaətdir.**

Çünki vaxtı ilə Birinci Qarabağ savaşında hərbi telereportyor kimi daim döyüşçülərimizlə bir cərgədə olub, o döyüşlərə həmin müharibənin odundan-alovundan keçənlərin gözü, həm də sözü-söhbəti ilə nəzər salmışam. O vaxtlar təbərrik arzumuz olan qələbəni ekrandan, efirdən çatdırmaq istəyi ilə nəfəs alırdım və gündən-günə silahlı qüvvələrimizin təkmilləşdiyini, cəbbəxanamızın silah-sursatla, yeni döyüş vasitələri ilə möhkəmləndiyini görüb müşahidə etdikcə qələbəyə inamım birə-beş artırdı. Gözlənilməz anda, qısa bir vaxtda, ələlxüsus, 44 gündə! Qarabağımızın azad olunacağı, necə deyərlər, ağlımıza gəlməsə belə qələbəyə inamımızı da itirmirdik. Bu inamı yaradan səbəblərin ən üstün olanları isə ordumuzda aparılan islahatlar, Ali Baş Komandanımızın silahlı qüvvələrin inkişafına xüsusi diqqət göstərilməsi, dövlət büdcəsindən işğalçı Ermənistanın, az qala, dövlət büdcəsinə bərabər vəsait ayrılması idi. İndi gözümün önündən kino lenti kimi keçən o tarixin ən vacib məqamlarını qısa da olsa, xatırlatmaq istərdim...

2013-cü ilin sonunda Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu yaradıldı və bu ordu 2014-cü il ərzində ardıcıl irimiqyaslı təlimlər keçdi və qüvvələrini səfərbər edib formalaşdı. O zaman Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun ölkəmizin bu hissəsini müdafiə etməklə yanaşı, xüsusilə, buradakı cəbhə xəttindən başlayan işğalda olan Qarabağ ərazilərini azad etmək üçün hücum əməliyyatlarına hazırlığını artırması işğalçı Ermənistanı bərk təşvişə salmışdı. Bizim məqsədimiz isə Azərbaycanın ayrılmaz hissəsi olsa da, ölkəmizlə qurudan əlaqəsi olmayan, xəritəmizdə ayrı qalan muxtar respublikamızın elə ayrıca da müdafiə qüdrətinə sahib olması idi və buna nail olduq. Paralel olaraq, ümumilikdə, silahlı qüvvələrimizin ayrı-ayrı qoşun və birliklərinin elə ayrılıqda əldə etdiyi hazırlıq zaman keçdikcə bütöv bir güc halına gəlirdi. Bir neçə il sonra bu qüvvələrimizin ərazi bütövlüyümüz uğrunda mübarizədə, işğalçı düşmən üzərində şanlı qələbəmizdə xüsusi rolu və payı oldu.

İndi daha bir faktı tam əminiliklə qeyd edə bilərəm ki, Vətən müharibəsində qələbəmizin bünövrəsi, xüsusilə, 2010-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin hər il keçirilən irimiqyaslı birgə əməliyyat-taktiki təlimlərində qoyulub. İndi mən silahlı qüvvələrimizin arsenalına yeni daxil edilən ağır artilleriya silahlarının, yaylım atəş sistemlərinin, helikopter və döyüş təyyarələrinin, digər döyüş texnika və vasitələrinin istifadəsi, müxtəlif əməliyyat şəraitlərində tətbiqi ilə keçirilən, tam müharibə mənzərəsi yaradan həmin təlimləri hərbi gücümüzün tam nümayişi ilə yanaşı, Vətən müharibəsinin baş məşqi hesab edirəm.

İlbəil Hərbi Hava Qüvvələrimizin Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə birgə keçirdiyi təlimlər də ordumuzu qələbəyə aparan vacib və qürurverici hərbi tədbirləri kimi tarixləşib. Eləcə də doğma Şuşamızı kiçik çaplı atıcı silahlarla, sərt qayalar, keçilməz yerlər aşaraq, heç bir dəstək olmadan azad edən xüsusi təyinatlılarımız da bu bacarığı illərlə qardaş Türkiyə komandoları, "bordo berelilərlə" əməkdaşlıq, birgə təlimlər sayəsində əldə etmişdilər.

Pozulan sərhədlərimizin bərpasına can atan Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin peşəkarlarla möhkəmləndirilməsi, yeni silah və hərbi texnika ilə gücləndirilməsinin də uğurlu nəticələrini məhz Vətən müharibəsində aydın gördük. Hələ torpaqlarımızın işğalda olduğu vaxtlarda Horadiz sərhəd zastavasında çəkilişdə olarkən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi istiqamətində işğalçı Ermənistan silahlı birləşmələrinin ölkəmizə aid sərhəddə, sərhədçilərimizin dayanmalı olduğu SSRİ-dən qalma keşikçi qülləsində qurduğu postdan bizi atəşə tutub bu yerlərə yaxın durmağımıza imkan verməməsi məni o zaman çox məyus etmişdi. 2020-ci ilin Vətən müharibəsinin elə ilk günlərində sərhədçilərimizin də iştirakı, qanı-canı bahasına azad olunan həmin yerlərdə – Cəbrayılda, Zəngilanda, nəhayət, Azərbaycan bayrağının yüksəldilməsi, sərhəd zastavalarının yaradılması mənim üçün, xüsusilə əlamətdar və qürurverici oldu. Bu, illərlə hərbi jurnalist kimi sərhəd qoşunlarımızda izlədiyim hazırlıq tədbirlərinin, təlimlərin uğurlu nəticəsi idi.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunları haqda illər öncəsi "Atəşkəsdən sonrakı dövrdə daha da təkmilləşərək, böyük təcrübə və döyüş bacarığı əldə edən, ölkədəki cinayətkarların, qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsi və sabitliyin qorunmasında mühüm tapşırıqları yerinə yetirən Daxili Qoşunların (DQ) şəxsi heyəti ərazilərimizi işğal edən qüvvələrə qarşı mübarizəyə xüsusilə hazırdır," – demişdim. Çünki o zaman bu qüvvələrimizin ölkəmizdəki daxili sabitliyi qorumaq yolunda xidmət etməklə yanaşı, əsasən torpaqlarımızın azadlığı uğrunda mübarizəyə can atdığının şahidi olmuşdum. Bu qoşunların xüsusi təyinatlılarının Vətən müharibəsində, torpaqlarımızın hər qarışı uğrunda gedən döyüşlərdə düşmənə necə qan uddurduğunu izləyərək illərlə əvvəl müşahidələrimdə yanılmadığımı gördüm. Bəli, DQ-ın xüsusi təyinatlı dəstələri məhz illərlə Qarabağ şəraitindəki hərbi əməliyyatlara uyğun hazırlanmışdı və müsbət nəticə də onların 2020-ci ildə, şanlı qələbəmizdəki xüsusi fəaliyyətləri ilə ortaya qoyuldu.

Vətən sevgisi ilə silahlanan döyüşçülərimiz, təbii ki, torpaqlarımızı azad etmək gücünə sahib olmaq üçün zaman-zaman lazımi silah-sursat, döyüş texnika və vasitələri ilə də lazımınca təmin olunmalı idi. Bu təminatı isə Respublika Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2005-ci ildə yaradılan Müdafiə Sənayesi Nazirliyi 15 il sonra Vətən müharibəsində müdafiəçilərimizin silah-sursat ehtiyacını tam ödəməklə, silahlı qüvvələrimizin döyüş meydanında üstünlüyünə vəsilə oldu.

Onu da qeyd etmək lazımdır ki, cəbbəxanamız təkcə müdafiə sənayemizin istehsalı olan silah və döyüş vasitələri ilə möhkəmləndirilməmişdi. Sırf Azərbaycan istehsalı olan silah-sursat və döyüş texnikası ilə yanaşı, hərbi-texniki əməkdaşlıq sayəsində qardaş Türkiyədən, İsraildən və digər dost ölkələrdən alınan pilotsuz uçuş aparatları, yaylım-atəş sistemləri, radiotexniki mübarizə vasitələri və onlarla digər döyüş texnikası da müharibə meydanında üstünlüyü ələ almaq üçün silahlı qüvvələrimizin çox karına gəldi. Bu sırada adı dillər əzbəri olan, Vətən müharibəsində sərgilədiyi döyüş imkanları ilə bütün dünyanı heyrətə salan qardaş Türkiyənin "Bayraktar" PUA-larının qələbəmizin az itki, böyük üstünlüklə və qısa vaxtda əldə olunmasında xüsusi yeri, rolu oldu...

"Qələbə səngərdən başlayır", – deyə illərlə əvvəl yaranıb bu günə qədər dillərdə dolaşan bir deyim var. Bu deyimə bundan sonra da yaşamaq haqqı qazandıran məqamlardan biri də bizim haqq davamız, Vətən müharibəmiz oldu. Zaman-zaman səngərlərdən göz önündə, amma işğal altında olan doğma torpaqlarını həsrətlə izləyən Azərbaycan əsgərinin səbri artıq tükənmişdi. Mübariz İbrahimov qəhrəmanlığı, Aprel döyüşləri, düşmənin Tovuz təxribatı ordumuzu ölüm-dirim savaşına atılmağa, xalqımızı ayağa qalxmağa, yumruq kimi birləşməyə səslədi və hamı Ali Baş Komandanın "Döyüşə!" əmri ilə bir nəfər kimi silaha sarılmağa hazır olduğunu bildirdi. Silahlı qüvvələrimizin zabit və əsgərləri düşmənin ağlına gəlməyən qəhrəmanlıqlarla böyük zəfərə imza atdılar.

**Rahib QƏRİB,**
**hərbi jurnalist**

Xalq qəzeti .- 2022.- 30 oktyabr.- S.8.